Azərbaycan.- 2021.- 29 aprel. S. 3.

# İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri davam edir

"2020-ci il sentyabrın 27-də Ermənistan növbəti dəfə vətəndaşlarımızı ağır artilleriya zərbələrinə məruz qoydu. Düşmənin həyata keçirdiyi bu təcavüzə həmişəlik son qoymaq məqsədi ilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə Silahlı Qüvvələrimiz cəbhəboyu əks-hücum əməliyyatlarına başladı. Bundan sonra şanlı tariximizin Zəfər salnaməsi yazılaraq, 44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tamamilə darmadağın edildi. Ermənistan müharibədə məğlubiyyətə uğrayaraq, 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur edildi".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.

Milli Məclis sədrinin müavini qeyd edib ki, təxminən 27 il bundan əvvəl qəbul edilsə də, kağız üzərində qalan BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini Azərbaycan özü icra etməli oldu. "BMT Təhlükəsizlik Şurasının qətnamələrinin əsas cəhəti dərhal icra mexanizminin həyata keçirilməsi ilə bağlıdır. BMT qətnamələrinin bəzi hallarda icrası cəmi bir neçə saat çəkir. Burada ortaya maraq doğuran bir sual çıxır ki, hansı səbəbdən qətnamə bu vaxta qədər icra edilmirdi? Hansı ki, bu qətnamələrin dərhal və qeyd-şərtsiz icrası vacibdir. Lakin hökm sürən ikili standartlara görə ötən dövrdə bu qətnamələrin icrasına heç bir məcburiyyət tətbiq edilmədi", - deyə deputat vurğulayıb.

Adil Əliyev qeyd edib ki, 1992-ci ildə Ermənistan tərəfindən törədilmiş Xocalı soyqırımı nəticəsində qadınlar və uşaqlar da daxil olmaqla, 613 nəfər günahsız dinc sakin qətlə yetirilib. Xocalı soyqırımı indiyədək 13



ölkə tərəfindən tanınıb. Ermənilər işğal dövründə şəhər və kəndlərimizi dağıdıb, tarixdə misli görünməmiş vandallıq aktları törədiblər. Bu gün işğaldan azad edilmiş ərazilərə baxdıqda buradan bir barbar qoşunu keçməsinin şahidi oluruq. Təsadüfi deyil ki, törədilmiş bu vandallıq aktlarının nəticəsində mütəxəssislər Ağdam şəhərini "Qafqazın Xirosiması" adlandırırlar. Ermənilər vandalizm aktı törədərək tarixi, mədəni və dini abidələri təhqir və qarət ediblər və 60-dan çox məscidi dağıdıblar. Azərbaycan tarixi ədaləti bərpa edərək 30 ilə yaxın işğal altında olan torpaqlarını düşmən tapdağından azad etdi. Tarixi ədalətin bərpası ilə yanaşı, bu gün işğaldan azad edilmiş ərazilərimizin də yenidən qurulması prioritet istiqamətdir.

"İşğaldan azad edilmiş ərazilərimizin dirçəldilməsi, həmin ərazilərə böyük qayıdışın təmin olunması dövlətimizin əsas prioritetlərindəndir. Dövlət başçısının işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfəri zamanı yenidənqurma prosesi çərçivəsində Zəngilan rayonunun Ağalı kəndində "ağıllı" kənd konsepsiyasının icrasına başlandı. Əminik ki, "ağıllı" şəhər, "ağıllı" kənd konsepsiyaları əsasında yenidənqurma işləri çox sürətlə davam edəcək, işğaldan azad edilmiş ərazilərimiz firavan günlərə qovuşacaqdır", - deyə Adil Əliyev əminliyini ifadə edib.